**Hasanov N.R.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.77.47-55**
**UDC: 349.2; 349.3**

# The right of insured persons under compulsory health insurance to demand the confidentiality of information that constitutes medical confidentiality

**Abstract:** The rights and duties of the insured subject of compulsory medical insurance are defined in the relevant norms of the law of the Republic of Azerbaijan "On medical insurance". One of the main rights of the insured person is the right to request the confidentiality of the information obtained by the doctor about the patient during the compulsory medical insurance relationship.In the present article, the determination of the "right to demand the confidentiality of medical confidential information" at the legislative level, the implementation and forms of that right, the extent of responsibility of the guilty subjects in relation to the violation of the mentioned right or non-violation even if necessary, and other issues will be discussed.

**Key words:** health insurance; compulsory health insurance; insured, doctor's secret; legislation norms related to doctor's secret.

## References

1. Criminal Code of the Republic of Azerbaijan. Available at: https://e-qanun.az/framework/46947 (in Azerbaijani).

2. Bandaliyeva A. Manifestation of bioethical principles in Islamic values // Collection of Theses of the international republican conference on the topic "Freedom of Religion and Belief: Legal, Political and Social Aspects". ANAS Institute of Human Rights. Baku: "Science and Education" Publ., 2012, pp. 26-27 (in Azerbaijani).

3. Aliyev M.N. Theoretical aspects of medical law in the Republic of Azerbaijan. Baku: Vatenoglu Publ., 2016. - 280 p. (in Azerbaijani).

4. Law of the Republic of Azerbaijan "On Protection of Population Health". Available at: https://e-qanun.az/framework/4078 (in Azerbaijani).

5. Mustafazade A.I., Aslanov Z.N. Medical law. Textbook. Baku: Science Publ., 2017, 204 p. (in Azerbaijani).

6. Law of the Republic of Azerbaijan "On Narcological Service and Control". Available at: https://e-qanun.az/framework/2707 (in Azerbaijani).

7. Law of the Republic of Azerbaijan "On Psychiatric Assistance". Available at: https://e-qanun.az/framework/2698 (in Azerbaijani).

8. Law of the Republic of Azerbaijan "On Medical Insurance". Available at: https://e-qanun.az/framework/80 (in Azerbaijani).

9. Atabek, Reshat, Sezen, Merih, Physician's Responsibility, IBD. 1954, p. 165 (in Turkish).

10. Caglayan, M. Muhtar, Meslek Sırrı, AD., 1977, P.1-6. (in Turkish).

♦ **Hasanov Nijat Rafael oglu** - PhD candidate at the Faculty of Law, Baku State University, Department of "Labor and Environmental Law", Specialization in "Labor Law, Social Security Law" (Azerbaijan). E-mail: nijat.hasanov07@gmail.com

11. Donay, Suheil, Crime of Revealing Professional Secret, Istanbul, 1978, p. 270. (in Turkish).

12. Kindhäuser, Urs / Neumann, Ulfrid / Paeffgen, Hans-Ullrich, Strafgesetzbuch, Nomos Kommentar, 5th edition, 2017, p.7836. (in German).

13. https://e-ganun.az/framework/3994

14. https://www.mevzuat.gov

15. https://aids.az/

16. http://www.arag.de/de/aktuelles/tipps/gesundheit/01350

**Həsənov N.R.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.77.47-55**
**UOT: 349.2; 349.3**

# İcbari tibbi sığorta üzrə sığortaolunanların "həkim sirri təşkil edən məlumatların gizli saxlanmasını tələb etmək" hüququ

**Xülasə:** "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası qanununun müvafiq normalarında icbari tibbi sığorta subyekti olan sığortaolunanın hüquq və vəzifələri müəyyən edilmişdir. Sığortaolunanın əsas hüquqlarından biri isə icbari tibbi sığorta münasibətləri zamanı həkimin pasiyent barəsində əldə etdiyi və həkim sirri hesab edilən məlumatların gizli saxlanılmasını tələb etmək hüququdur. Hazırkı məqalədə isə "həkim sirri olan məlumatların gizli saxlanılmasını tələb etmək hüququ"nun qanununvericilik səviyyəsində təsbit edilməsi, həmin hüququn həyata keçirilməsi və formaları, qeyd edilən hüququnun pozulması və ya zəruri hallarda olsa belə pozulmaması ilə bağlı təqsirli subyektlərin məsuliyyət həddi və s. məsələlərdən bəhs ediləcəkdir.

**Açar sözlər:** tibbi sığorta; icbari tibbi sığorta; sığortaolunan; həkim sirri; həkim sirri ilə bağlı qanunvericilik normaları.

## GİRİŞ

Həkim sirrinin qorunması, tibb hüququnun əsas prinsiplərindən biridir və bu prinsip, xəstənin sağlamlığı ilə bağlı məlumatların məxfiliyini təmin edir. Tibb hüququ, həmçinin həkimlərə və səhiyyə işçilərinə xəstələrə dair məlumatların yalnız qanunla müəyyən edilmiş hallarda və ya xəstənin icazəsi ilə açıqlanmasına icazə verir. Bu hüquq, şəxsi həyatın gizliliyini qorumağa, tibbi xidmətlərin etibarlılığını və xəstənin hüquqlarını təmin etməyə yönəlmişdir. Həkim sirri, vətəndaşların tibbi xidmətlərə etibarını artırır və səhiyyə sahəsində etik və hüquqi öhdəliklərin yerinə yetirilməsini təmin edir. Beləliklə, tibb hüququ, həkim sirrinin qorunmasını həm etik, həm də hüquqi baxımdan tənzimləyərək, şəxsi azadlıqların və sağlamlığın qorunmasına xidmət edir**.** Ümumilikdə tibb hüququnun predmeti, vətəndaşların sağlamlığının qorunması və bu sahədə yaranan hüquqi münasibətləri əhatə edir. Bu hüquq sahəsi, tibbi xidmətlərin göstərilməsi,

[♦] **Həsənov Nicat Rafael oğlu** - Bakı Dövlət Universiteti Hüquq fakültəsinin "Əmək və ekologiya hüququ" kafedrasının "Əmək hüququ, sosial təminat hüququ" ixtisaslaşması üzrə doktorantı (Azərbaycan). E-mail: nijat.hasanov07@gmail.com

səhiyyə işçilərinin fəaliyyətləri və sağlamlıqla bağlı hər hansı bir hüquqi məsələni tənzimləyir. Həkim sirri, tibb hüququnun predmeti ilə sıx bağlıdır, çünki bu prinsip, şəxsi məlumatların qorunmasını və gizliliyini təmin edərək, sağlamlığın qorunması hüququnu müdafiə edir. Prof. M.N.Əliyev qeyd edir ki, sağlamlığının qorunması sahəsində yaranan münasibətlər tibb hüququnun predmeti kimi xarakterizə edilə bilər [3, s. 33]. Müəllifin fikri ilə razılaşaraq qeyd edirik ki, tibb hüququ, insanların sağlamlığını və rifahını qorumaq məqsədini güdür və bu hüquqların təmin edilməsi üçün dövlət və tibb işçiləri arasında yaranan hüquqi münasibətləri əhatə edir. Tibb hüququ, həmçinin tibbi xidmətlərdən faydalanan şəxslərin hüquqlarını qorumağa, onların sağlamlıq vəziyyətləri ilə bağlı məlumatların düzgün və şəffaf şəkildə idarə edilməsinə həkimlərin və digər səhiyyə işçilərinin etik və hüquqi məsələlərə riayət etməsinə yönəlir. Bundan əlavə həkim sirri, tibbi etika və hüququn əsas məsələlərindən biri kimi çıxış edir. Həkimlər və digər səhiyyə işçiləri xəstələrin sağlamlığına dair məlumatları yalnız xəstənin razılığı ilə açıqlaya bilərlər. Həkim sirri, şəxsin öz sağlamlıq vəziyyəti ilə bağlı məlumatların gizliliyini və qorunmasını təmin edən vacib bir hüquqi və etik prinsiptir. Bu, tibb hüququnun sahəsindəki münasibətləri daha da dərinləşdirir, çünki sağlamlıq hüququ, yalnız tibbi xidmətə çıxış və sağlamlığın qorunması ilə bağlı deyil, eyni zamanda bu xidmətlərin göstərilməsi zamanı şəxsi məlumatların qorunmasına da diqqət yetirilməlidir. Həkim sirri, eyni zamanda tibb hüququnun əsas elementlərindən biri olaraq, insanın şəxsi həyatına müdaxiləni əngəlləyir və bu, vətəndaşların sağlamlığının qorunmasına dair yaranan münasibətlərin qorunmasını təmin edir. Həkimlər, xəstələrə dair məlumatları yalnız qanunla icazə verilən hallarda və ya xəstənin izni ilə açıqlaya bilərlər. Bu, həm də tibbi etikada insanın şəxsi məxfiliyini qorumaq məqsədini güdür və hüquqi baxımdan xəstənin hüquqlarını təmin etməyi nəzərdə tutur.

Azərbaycan Respublikasında "Tibbi Sığorta haqqında" (bundan sonra-qanun) qanuna müvafiq dəyişikliklər edildikdən sonra İTS-in subyekti kimi sığortaolunanların hüquqi statusu müəyyən edilmişdir. Belə ki, həmin qanunun 15-2.1-ci maddəsində qeyd edilmişdir ki, Azərbaycan Respublikasının vətəndaşları Azərbaycan Respublikasında qaçqın statusu almış və BMT-nin Qaçqınlar üzrə Ali komissarının Azərbaycan Respublikasındakı nümayəndəliyi tərəfindən himayəyə götürülmüş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər sığortaolunan hesab edilir [8].

Qanunun15-4.1.4-ci maddəsində qeyd edilir ki, icbari tibbi sığorta üzrə sığortaolunanların "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən həkim sirri təşkil edən məlumatların gizli saxlanmasını tələb etmək hüququ vardır [4]. Qeyd edilən hüququnun qanunun konkret maddəsində təsbit edilməsində qanunvericinin xüsusi məqsədi vardır. Məlumdur ki, həkim peşə etik qaydaları və professionallıq baxımından həm sığortaolunan pasiyentinə (sığortaolunan onsuzda pasiyent hesab edildiyi üçün bundan sonra müvafiq olaraq "pasiyent" və ya "xəstə") həm də dövlətə qarşı olan bir sıra öhdəlikləri daşıyır. Bu öhdəliklərdən biri də xəstələrin (pasiyentlərin) şəxsi sirri hesab edilən məlumatlaırn əldə edilməsi zamanı həmin sirlərin qorunması və digər şəxslərə açıqlanmamasıdır. Aydın məsələdir ki, həkim-pasiyent münasibətlərində müayinə və müalicə əsnasında həkimlər pasiyentlərin xəstəliyinin ilkin səbəbi haqqında məlumat əldə edə bilir və ya pasiyentlər tərəfindən qeyd edilən məlumatlar könüllü şəkildə açıqlanır. Bəs qeyd edilən məlumatlar pasiyentin şəxsi məlumatları hesab olunurmu? Əgər şəxsi məlumat hesab olunursa bu zaman onlar həkim sirrini təşkil edirmi? Bu sualların cavablandırılması üçün konkret qanunvericilik aktlarına nəzər salaq.

"Əhalinin sağlamlığının qorunması haqqında" qanunun 53-cü maddəsində qeyd edilir ki, vətəndaşın tibbi yardım üçün müraciət etməsi faktı, onun xəstəliyinin diaqnozu, sağlamlığının vəziyyəti müayinə və müalicə vaxtı əldə edilən digər məlumatlar barədə informasiya həkim sirrini təşkil edir. Vətəndaşın verəcəyi məlumatın gizli saxlanılması haqqında ona zəmanət verilir [4]. Normanın məzmundan göründüyü kimi həkim sirri təşkil edən məlumatların konkret dairəsi müəyyən edilmişdir. Lakin belə olan bir sual yaranır? Müayinə və müalicə zamanı əldə edilən hansı məlumatlar həkim sirrini təşkil edir? Fikrimizcə bu hissədə qanunverici konkret hədd müəyyən etmədən müayinə müalicə vaxtı əldə edilmiş istənilən məlumatı həkim sirri kimi nəzərdə tutulmasını qeyd etmişdir. Bəs "sirr" deyildikdə nə başa düşülür və bu anlayışa nələr daxildir? Azərbaycan dilinin izahlı lüğətində qeyd edilmişdir ki, "sirr" başqalarından gizli saxlanılan, başqalarına bildirilməyən, deyilməyən, hamının bilməli olmadığı söz, iş və s. dir. Hüquq ədəbiyyatlarında verilmiş anlayışlara istinadən qeyd edə bilərik ki, sirr mahiyyətinə görə ona bildirilən şəxsin saxlamalı olduğu və saxlanması sahibinə faydalı olan məlumatdır [10]. Doktrinada "sirr" anlayışı "öyrənilən və maddi mövcudluğu olmayan, məxfiliyə əsaslanan və açıqlanmaması sahibinin maraqlarına uyğun olan məsələlər" kimi müəyyən edilir [11, s. 4]. Alman təlimində isə sirr anlayışı yalnız bir şəxs və ya məhdud bir qrup insanlar tərəfindən bilinərək qorunan məlumatlara aiddir [12]. Fikrimizcə isə, qeyd edilən kontekstdə "sirr" dedikdə şəxsin şərəf və ləyaqətinin alçaldılmasına, onun barəsində cəmiyyətdə mənfi fikir formalaşdırılmasına, iqtisadi və sosial həyat şəraitinin pisləşməsinə səbəb olan məlumatlardır. Qeyd edə bilərik ki, həkimlərin öz peşəsini icra etməsi nəticəsində pasiyent barəsində əldə etdiyi məlumatlar sirr kimi qiymətləndirilə bilər. Lakin hər bir halda nəzərə almaq lazımdır ki, əldə edilmiş məlumatlar bilavasitə şəxsin başqa şəxslərin bilməməsini istədiyi və ya bilindiyi təqdirdə ona bu və ya digər şəkildə zərər vurulma ehtimalı olan məlumatlar şəxsi məlumatlar hesab edilməlidir. Belə ki, şəxsin ətrafında olan bəzi şəxslərə məlum olan xəstəliyi və ya virus (infeksiya) yoluxması nəticəsində həkimə müraciət etdiyi hallarda həmin məlumatı gizli və ya sirr hesab edilən məlumat hesab etmək olmaz. Bəzi hüquq ədəbiyyatlarında qeyd edilir ki, həkimlər öz peşəsini yerinə yetirərkən deyil də başqa vasitələrlə əldə etdiyi məlumatları digər şəxslərə açıqlaması və ya yayması onun barəsində həkim sirrinin yayması ilə bağlı məsuliyyətə səbəb ola bilməz və həmin həkimin hərəkəti həkim sirrini yayma kimi qiymətləndirilməməlidir [6, s. 2]. Digər müəlliflər qeyd edir ki, pasiyentin anlayışlı və yazılı formada olmaqla informasiya əldə etmək hüququ vardır. Bu konteksdə informasiya əldə etmə hüququ həkim sirrindən fərqlənir [2, s. 26-27]. İstinad olunan fikir ilə razılaşaraq qeyd edirik ki, həkim öz peşəsinin həyata keçiriməsi ilə bağlı pasiyent barəsində əldə etdiyi məlumatı həmin pasiyentlə bölüşməsi həkim sirrinin pozulması kimi qiymətləndirilə bilməz. Çünki həkim sirri, yalnız pasiyentin razılığı və ya qanuni hallarda üçüncü tərəflərə açıqlanması ilə əlaqələndirilir. Əgər həkim, pasiyentin sağlamlığına dair məlumatları yalnız ona uyğun tibbi xidmət göstərmək məqsədilə və pasiyentlə müzakirə edərək bölüşürsə, bu, həkim sirrinin pozulması deyil, əksinə peşə etikası və hüquq çərçivəsində bir addımdır.

Bəs insan sağlığı ilə bağlı digər qanunvericilik aktlarında həkim sirri ilə bağlı normalar nəzərdə tutulmuşdurmu? "Psixiatriya yardımı haqqında" Qanunun 7-ci maddəsinə görə psixi pozuntusu olan şəxsin sağlamlığının vəziyyəti və ona göstərilən psixiatriya yardımı tədbirləri haqqında məlumatlar konfidensial hesab edilir. Şəxsin psixi sağlamlığının vəziyyəti və ona psixiatriya yardımı göstərilməsi haqqında məlumatlardan sərbəst istifadə hüququ həmin şəxsin özünə və buna qanunvericilikdə nəzərdə tutulmuş qaydada icazə verilmiş şəxslərə məxsusdur. Qeyd edilən məlumatlar həkim sirrini təşkil etdiyindən psixiatriya yardımı göstərən müəssisələr gizli

məlumatlardan yalnız həmin peşə dairəsində və psixatriya yardımı göstərmək üçün zəruri olan həddə istifadə edə bilərlər [7]. Qüvvədən düşmüş "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliyin (AİDS) yayılmasının qarşısının alınması haqqında" Qanunun 18-ci maddəsinə görə səhiyyə və digər dövlət orqanlarının və təşkilatlarının işçiləri vəzifələrini yerinə yetirərkən tibbi müayinədən keçən şəxsdə HİVin aşkar edildiyini, eləcə də bununla bağlı digər bilgiləri məxfi saxlamağa borcludurlar və onun yayılmasına görə məsuliyyət daşıyırlar [13]. "Narkoloji xidmət və nəzarət haqqında" Qanunun 7-ci maddəsinə əsasən narkoloji xidməti və nəzarəti həyata keçirən, habelə xidməti vəzifələri həyata keçirərkən qulluq mövqeyinə görə narkoloji xəstələr barəsində bilgiləri əldə edən digər şəxslər həmin bilgilərin yayılmasına yol verməməlidirlər [6]. İstinad olunan qanunvericilik normalarına əsasən qanunvericiliyimizdə həkim sirrinin yayılması əməli qanunla qadağan edilsə də bu əməlin cinayət məsuliyyətinə səbəb olması cinayət qanunvericiliyində təsbit edilməmişdir. Halbuki digər ölkələrin qanunvericilik aktlarına nəzər saldıqda görünür ki, həkim sirri hesab edilən məlumatların gizli saxlanılması öhdəliyinin pozulması həkim və ya bu kateqoriyadan hesab edilən şəxslər barəsində cinayət məsuliyyətinə səbəb olur. Məsələn: Alman qanunvericiliyində bu cür əməllər Almaniya Cinayət Məcəlləsinin 203-cü maddəsində "Şəxsi sirlərin açıqlanması" başlığı altında verilmişdir. Həmin maddədə qeyd edilir ki, bu cinayət şəxsi həyat, ticarət və ya işgüzar münasibətlərlə bağlı sirlərin hər hansı bir şəkildə üçüncü şəxslərə ötürülməsi zamanı baş verir və maddə 203/1-1 uyğun olaraq; həkim, stomatoloq, baytar, əczaçı və ya digər tibb işçisi öz peşəsi zamanı öyrəndikləri sirləri açıqlarsa, bir ilədək müddətə azadlıqdan məhrum etmə və ya cərimə ilə cəzalandırılır [12]. Oxşar norma Türk Cəza Qanunun 136, 137-ci maddələrində nəzərdə tutulmuşdur [14]. Qeyd edilən qanunvericilik aktlarının məzmunundan göründüyü kimi həkimlərin yuxarıda göstərilmiş xəstəliklər üzrə əldə etdiyi məlumatları digər şəxslərə açıqlaması və yayması qadağandır. Ölkə ərazisində açıqlanmış statistik məlumatlara əsasən yetkinlik yaşına çatmayan şəxslərin hamilə qalması və ya İİV, QİÇS viruslarına yoluxmuş şəxslərin sayı artmaqda davam edir. Bu zaman bəlli olan faktdır ki, qeyd edilən halların bir çoxunda cinayət əməlləri törədilir (məsələn Cinayət Məcəlləsinin 140, 152-ci maddələri və s). Bəs törədilmiş bu cinayət əməlləri barəsində məlumatı olan həkimlərin hüquq-mühafizə orqanlarına məlumat verməsi kimi bir öhdəlik qanunvericilikdə nəzərdə tutulmuşdurmu? Qeyd edək ki, Cinayət Məcəlləsinin (bundan sonra-CM) 307.1-ci maddəsinə əsasən ağır və ya xüsusilə ağır cinayətin hazırlanmasını və ya törədilməsini bilərək həmin cinayət barəsində xəbər verməmə cinayət məsuliyyətinə səbəb olur. Normanının dispozisiya hissəsindən də göründüyü kimi yalnız ağır və xüsusilə ağır cinayətlərlə bağlı məlumat verməmə barədə qanunverici məsuliyyəti nəzərdə tutmuşdur [1]. Lakin yuxarıda qeyd edilən cinayət əməlləri üzrə (On altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma, insan immunçatışmazlığı virusu ilə yoluxdurma və s.) sanksiyalara nəzər saldıqda görünür ki, həmin əməllər az ağır cinayətlər kateqoriyasına aiddir. Belə olan halda isə həmin cinayət əməllərinin törədilməsi barədə məsələn pasiyentin QİÇS virusuna yoluxması və həmin şəxsin öz xəstəliyini bildikdən sonra yenidən başqa şəxslərə intim münasibətlərdə olduğu və ya pasiyentə qarşı zorlama cinayətinin törədilməsi məlum olur. Belə olan halda isə həkimlər hüquq mühafizə orqanlarına məlumat verməsə beləonların məsuliyyəti istisna ediləcəkdir. Çünki CM-in 5.1-ci maddəsində qeyd edilir ki, əməlin (hərəkət və ya hərəkətsizliyin) cinayət sayılması və həmin əmələ görə cəza və digər cinayət-hüquqi xarakterli tədbirlər yalnız bu Məcəllə ilə müəyyən edilir [1]. Belə olan halda isə qeyd edilən az ağır cinayətlərin törədilməsi barədə həkimin məlumat verməməsi həkim üçün məsuliyyətə səbəb ola bilməz. Bu zaman sual yaranır qanunverici şəxsi mənafeləri ictimai mənafelərdən üstünmü tutur? Bu məsələ ilə bağlı xarici ölkələrin qanunvericiliyinə nəzər saldıqda

görə bilirik ki, həmin ölkələrdə qanunverici konkret olaraq səhiyyə əməkdaşının (həkimin) ona məlum olan qanunla qadağan olunmuş əməlin törədilməsi barədə məlumatı hüquq mühafizə orqanlarına bildirməsi, əks təqdirdə isə onların cinayət məsuliyyətinə cəlb ediləcəyi qeyd edilmişdir. Məsələn: Türk Cəza Qanununun “Tibb işçilərinin cinayət barədə məlumat verməməsi” başlığı altında verilən 280-ci maddəsində qeyd edilir ki, vəzifəsini yerinə yetirərkən cinayətin törədildiyini göstərən əlamətlərlə qarşılaşsa da, vəziyyəti səlahiyyətli orqanlara bildirməyən və ya gecikdirən tibb işçisi bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır [14]. Oxşar norma Almaniya Cinayət Məcəlləsində “Törədilən cinayətlər barədə məlumat verilməməsi” başlığı altında 138-ci maddədə verilmişdir [12]. Göründüyü kimi qanunverici həmin hissədə cinayət qanunvericiliyində xüsusi norma müəyyən etmiş və bununla da həkimin sirr hesab edilən məlumatı yaymamaq kimi öhdəlik daşımasına baxmayaraq ictimai mənafeni (çünki cinayət əməli yalnız konkret fərdə deyil ümumlikdə cəmiyyətə zərər vurur və ona görə də ictimai təhlükəli əməl kimi qiymətləndirilir) şəxsi mənafe olan-pasiyentin mənafeyindən üstün tutaraq bu hissədə haqlı mövqe nümayiş etdirmişdir. Lakin Azərbaycan Respublikası Qanunvericiliyində qeyd edilən hissədə olan boşluqlar, törədilmiş olan az ağır cinayətlərə dair məlumatların verilməməsi və gizlədilməsinə gətirib çıxarır. Bu səbəbdən də təklif edirik həkimin öz peşəsini icra edərkən pasiyent barəsində törədilmiş və ya pasiyent tərəfindən törədilmiş cinayət əməlləri barəsində dərhal hüquq mühafizə orqanlarına məlumat verməməsi ilə bağlı cinayət qanunvericiliyində məsuliyyət nəzərdə tutulmalıdır. Bəzi müəlliflər qeyd edir ki, pasiyentin hüquqlarını pozulmasına gətirib çıxaran və onların həyatını (sağlamlığını) təhlükə altında qoyan həkimlərin-ümumilikdə tibb işçilərinin məsuliyyətə cəlb edilməsi ilə bağlı cinayət tərkibləri mühüm əhəmiyyət kəsb etməsinə baxmayaraq qeyd edilən tərkiblər üzrə tətbiq edilən sanksiyalar lazımı səviyyədə effektiv deyildir [5, s. 121]. Göstərilənlərə əsasən müvafiq sahədə qanunvericilik aktlarında zəruri dəyişikliklər həyata keçirilməlidir.

Qeyd edilənlərdən əlavə qanunverici həkim sirri təşkil edən məlumatların bəzi istisna hallarda sığortaolunanın razılığı olmadan da açıqlana biləciyini qeyd etmişdir. Belə ki, “Əhalinin sağlamlığının qorunması haqqında” qanunun 53-cü maddəsinin üçüncü hissəsində qeyd edilir ki, həkim sirrini təşkil edən məlumat vətəndaşın, yaxud onun qanuni nümayəndəsinin razılığı olmadan aşağıdakı hallarda verilə bilər [4]:

- vətəndaş öz vəziyyətini izah etmək qabiliyyətinə malik olmadıqda, vətəndaşı müayinə və müalicə etmək məqsədilə;
- yoluxucu xəstəliklərin yayılması təhlükəsi olduqda, kütləvi zəhərlənmələr və zədələnmələr baş verdikdə;
- istintaq və təhqiqat orqanlarının, prokurorun və məhkəmənin sorğusu ilə;
- yetkinlik yaşına çatmayanların valideynlərinə, yaxud qanuni nümayəndələrinə məlumat vermək məqsədilə;
- hüquqa zidd hərəkətlər və vətəndaşın sağlamlığına vurulan zərər barədə şübhə olduqda;
- həqiqi hərbi xidmətə çağırışın və səfərbərliyin təmin olunması məqsədilə müvafiq icra hakimiyyəti orqanının sorğusu ilə.

Göründüyü kimi bəzi hallarda əldə edilmiş məlumatların hətta həkim sirri olsa belə xüsusi zərurətdən irəli gələrək açıqlana bilməsini səlahiyyəti verilmişdir. Bu səlahiyyət isə bilavasitə yaranmış halların zəruriliyinə əsaslanır. Lakin ölkə ərazisində statistik məlumatlar göstərir ki, 2021-ci ildə isə yeniyetmə anaların sayı 1650 nəfər olmuş, 2022-ci ildə bu say artaraq 2011-ə çatmışdır.

Həmçinin Səhiyyə Nazirliyi tərəfindən açıqlanmış statistik məlumatlarda göstərilir ki, 2022-ci il ərzində İİV-ə yoluxma 52,5 faizində heteroseksual kontakt nəticəsində baş vermişdir [15]. Qeyd edilən statistik məlumatlar onu deməyə əsas verir ki, hamilə qalmış "ana"lar yetkinlik yaşına çatmayanlardır, belə olan halda isə həkim ona məlum olan və həkim sirri hesab edilən məlumatları uşağın valideyninə açıqlaya bilər. Eyni ilə yeniyetmə oğlan uşaqlarında QİÇS yoluxma halları da müşahidə edilir və dolayısı ilə həkim bu məlumatları da onların valideyninə açıqlaya bilər. Həmçinin həkim-psixiatra müraciət edərək intihar etmək istədiyini bildirən pasiyentin valideyninə də bu məlumatları həkim verə bilər(kifayət qədər daha çox nümunələr gətirmək olar). Bu zaman belə aydın olur ki, yuxarıda istinad olunan normada "həkim sirrini təşkil edən məlumat vətəndaşın yaxud onun qanuni nümayəndəsinin razılığı olmadan aşağıdakı hallarda verilə bilər" ifadəsi imperativ olmamaqla bərabər qanunverici belə məlumatların açıqlanmasının həkimin diskression səlahiyyəti kimi müəyyən etmişdir. Bəs belə olan halda isə əgər uşaq hamiləlikdən və ya QİÇS-dən dolayı vəfat edərsə bu zaman hüquqi məsuliyyət kimin barəsində mövcud olmalıdır? Bununla bağlı xarici ölkələrin təcrübəsinə istinad edək: Almaniya Federal Məhkəməsi öz qərarlarından birində həkim sirrini üstün tutduğu və lazımi məlumatları uşağın valideynlərinə bildirmədiyi üçün həkimi məhkum etmişdir. Hadisə zamanı həkim kiçik qızın valideynlərinə hamiləliyi barədə məlumat verməkdən yayınmış və xəstəxanaya getmək üçün həkimin tövsiyəsinə əməl etməyən qız hamiləliyin ağırlaşması səbəbindən dünyasını dəyişmişdir [16]. Qeyd olunanlar onu deməyə əsas verir ki, bəzi hallarda konkret olaraq həkimin üzərinə hətta həkim sirri hesab edilən məlumatların belə zəruri şəxslərə (valideyn və ya ona bərabər tutulan şəxshüquq-mühafizə orqanları və s.) açıqlamaq kimi vəzifə qoyulmalıdır. Lakin bu heç bir halda pasiyentin "həkim sirri təşkil edən gizli məlumatların saxlanılmasını tələb etmək" hüququnun pozuntusu kimi qiymətləndirilməməlidir. Həmin hüquq mütləq hüquq hesab edilmədiyi və bu halın baş verməsi ümumilikdə ictimai təhlüklə hesab edilən əməlin qarşısının alınması olduğuna görə qanunvericilikdə qeyd ediliyi kimi müvafiq norma müyyən edilməlidir.

**N Ə T İ C Ə**

İcbari tibbi sığorta üzrə sığortaolunanların əsas hüquqlarından biri də həkim sirri təşkil edən məlumatların gizli saxlanmasını tələb etmək hüququdur. Bu hüququn təmin olunması ilə bağlı qanunvericilikdə bir sıra normalar nəzərdə tutulsa da, həmin hüququn pozulmasına və ya zəruri hallarda pozulmamasına rast gəlinir. Bu isə yalnız sığortaolunan pasiyentin deyil ümumlikdə cəmiyyət üçün mənfi nəticələr yaradır. Həkimlər öz peşəsini yerinə yetirərkən pasiyent barəsində əldə etdiyi və qanunvericilik üzrə "həkim sirri" hesab edilən şəxsi məlumatları gizli saxlamalıdırlar. Bu kontekstdə şəxsi məlumatlar və ya sirr dedikdə qeyd edilən şəxsin şərəf və ləyaqətinin alçaldılmasına, onun barəsində cəmiyyətdə mənfi fikir formalaşdırılmasına və ümumilikdə həyat şəraitinin pisləşməsinə səbəb olan məlumatlar başa düşülməlidir. Qanunvericiliyimizdə həkim sirrinin gizli saxlanılması və həkim sirri ilə bağlı müvafiq normalar nəzərdə tutulsa da həmin normaların tələblərinin pozulması ilə bağlı cinayət qanunvericiliyi üzrə məsuliyyət nəzərdə tutulmamış və bu da dolayısı ilə bir sıra həkimlərin məsuliyyətdən yayınmasına və həmin normaların qeyri-işlək olmasına gətirib çıxarır. Bu səbəbdən də təklif edirik ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinə həkim sirrinin açıqlanması və ya yayılması ilə bağlı həkimin cinayət məsuliyyətini nəzərdə tutan yeni norma daxil edilsin. Bundan başqa məqalə mətnində də qeyd edildiyi kimi bəzi istisna hallarda həkim sirri hesab edilən məlumatlar pasiyent və ya onun qanuni nümayəndəsinin razılığı olmadan digər şəxslərə açıqlana bilər. Lakin bu norma "həkim sirrinin gizli saxlanılması" norması ilə demək olar ki, üst-üstə düşür, çünki həmin norma imperativ

deyil dispozitiv şəkildə müəyyən edilmişdir və belə olan halda həmin norma üzrə qanunvericinin əsas niyyət və məqsədinin (törədilmiş və ya törədiləcək olan əməllər barəsində təxirəsalınmadan tədbirlərin görülməsi və ya qarşısının alınması) reallaşması qeyri-mümkün olacaqdır. Bu səbəbdən də təklif edirik ki, qeyd edilən istisna hallarda həkim sirri hesab edilən məlumatların açıqlanması həkimin üçün vəzifə kimi müəyyən edilməli və Cinayət Məcəlləsinə həmin vəzifənin yerinə yetirilməməsi ilə bağlı həkimin məsuliyyətini nəzərdə tutan müvafiq norma əlavə edilməlidir.

**Biblioqrafiya**

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/46947
2. Bəndəliyeva A. İslami dəyərlərdə bioetika prinsiplərinin təzahürü // "Din və Etiqad Azadlığı: Hüquqi, Siyasi və İctimai aspektləri" mövzusunda beynəlxalq tərkibli respublika konfransının Tezislər toplusu. AMEA İnsan Hüquqları İnstitutu. Bakı: "Elm və Təhsil" nəşriyyatı, 2012, s. 26-27
3. Əliyev M.N. Azərbaycan Respublikasında tibb hüququnun nəzəri aspektləri. – Bakı: Vətənoğlu, 2016. - 280 s.
4. "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/4078
5. Mustafazadə A.İ., Aslanov Z.N. Tibb hüququ. Dərs vəsaiti. – Bakı: Elm, 2017. - 204 s.
6. "Narkoloji xidmət və nəzarət haqqında"Azərbaycan Respublikasının Qanunu. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/2707
7. "Psixiatriya yardımı haqqında"Azərbaycan Respublikası Qanunu. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/2698
8. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/80
9. Atabek, Reşat, Sezen, Merih, Hekimin Mesuliyeti, İBD. 1954, s.165
10. Çağlayan, M. Muhtar, Meslek Sırrı, AD., 1977, S.1-6.
11. Donay, Süheyl, Meslek Sırrının Açıklanması Suçu, İstanbul, 1978, s. 270.
12. Kindhäuser, Urs / Neumann, Ulfrid / Paeffgen, Hans- Ullrich, Strafgesetzbuch, Nomos Kommentar, 5-ci nəşr, 2017, s.7836.
13. https://e-qanun.az/framework/3994
14. https://www.mevzuat.gov
15. https://aids.az/
16. http://www.arag.de/de/aktuelles/tipps/gesundheit/01350

**Гасанов Н.Р.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.77.47-55**
**УДК: 349.2; 349.3**

♦ **Гасанов Ниджат Рафаэль оглы** - докторант юридического факультета Бакинского государственного университета, кафедры «Трудового и экологического права», специализация «Трудовое право, право социального обеспечения» (Азербайджан). E-mail: nijat.hasanov07@gmail.com

## Право застрахованных в рамках обязательного медицинского страхования требовать сохранения врачебной тайны

**Аннотация:** В соответствующих нормах Закона Азербайджанской Республики о «Медицинском страховании» определены права и обязанности застрахованных в рамках обязательного медицинского страхования. Одним из основных прав застрахованного является право требовать сохранения в тайне информации, полученной врачом о пациенте, которая является врачебной тайной, в ходе обязательных медицинских страховых отношений. В настоящей статье будет рассмотрено закрепление на законодательном уровне права на требование сохранения врачебной тайны, формы реализации этого права, нарушения этого права и ответственность виновных субъектов в случае его нарушения или даже в случае необходимости его нарушения.

**Ключевые слова**: медицинское страхование; обязательное медицинское страхование; застрахованный; врачебная тайна; юридическая ответственность медицинских работников.